

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 128 (23.540)

8 avqust 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında qarşıya qoyulmuş vəzifələrə və yarımilin yekunlarına həsr olunmuş kollegiya iclasını maliyyə nazirinin müavini Həsən İsmayılov açıb. Bildirilib ki, ötən 6 ayda muxtar respublikanın dövlət büdcəsinin gəlirləri 55 milyon 468 min manat təyinata qarşı 103,1 faiz icra olunub, büdcəyə nəzərdə tutulandan 1 milyon 699 min 87 manat çox vəsait mədaxil edilib. 2020-ci ilin yanvar-iyun aylarında büdcə gəlirlərinin 77,1 faizi və ya 44 milyon 97 min 206 manatı Vergilər Nazirliyi tərəfindən təmin edilmiş vergi və rüsumlardan, 19 faizi və ya 10 milyon 843 min 852 manatı Dövlət Gömrük Komitəsi tərəfindən toplanılmış daxilolmalardan, 2,1 faizi və ya 1 milyon 186 min 941 manatı dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən, 1,8 faizi və ya 1 milyon 39 min 88 manatı isə digər mənbələr hesabına daxil olub.

Qeyd edilib ki, 2020-ci ilin birinci yarımilində Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 234 milyon 923 min 413 manat təyinata qarşı 219 milyon 603 min 226 manat və ya 93,5 faiz icra olunub. Büdcə xərcləri mərkəzləşdirilmiş büdcə üzrə 91,4, Naxçıvan şəhəri üzrə 92,4, Şərur rayonu üzrə 98, Babək rayonu üzrə 98,6, Ordubad rayonu üzrə 97,1, Culfa rayonu üzrə 98,1, Şahbuz rayonu üzrə 96,6, Kəngərli rayonu üzrə 97,5, Sədərək rayonu üzrə isə 98,1 faiz icra olunub. Yarımildə muxtar respublikanın dövlət büdcəsinin icrasında sosialyönümlü xərclərdən əməyin ödənilməsi, dərman və ərzaq xərcləri, təqaüd və sosial müavinətlərə 137 milyon 159 min 26 manat sərf olunub ki, bu da büdcə xərclərinin 62,5 faizini təşkil edib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı ilə yaradılmış Naxçıvan Muxtar Respublikasında Koronavirusla Mübarizəyə Dəstək Fondunun sərəncamçısı kimi Maliyyə Nazirliyi tərəfindən fonda toplanılmış vəsaitlərin ictimaiyyətə açıq olmaqla, dəqiq və şəffaf uçotu aparılıb, vəsaitlərdən qaydalara uyğun və səmərəli istifadə nəzarətdə saxlanılıb. Bundan əlavə, bəhs edilən dövrdə büdcədən maliyyələşən və ya dotasiya alan təşkilatlarda maliyyə və mühasibatlıq sahəsində işləyən əməkdaşların peşə biliklərinin artırılması, onlar tərəfindən qanunvericiliyə əməl edilməsi və vəzifə öhdəliklərinə məsuliyyətlə yanaşılmasını təmin etmək məqsədilə maarifləndirmə işləri davam etdirilib, Maliyyə Tədris Mərkəzi tərəfindən müxtəlif mövzuları əhatə edən 20 təlim keçirilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətində keçirilən kollegiya iclasında xidmətin rəisi, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Azər Nağıyev məruzə edərək bildirib ki, 2020-ci ilin birinci yarısında muxtar respublikada özəl sektorun inkişafına dövlət dəstəyi nəticəsində makroiqtisadi göstəricilər üzrə artım dinamikası davam edib, nəticədə, dövlət büdcəsi üzrə proqnozlar artıqlaması ilə icra olunub. Belə ki, hesabat dövründə muxtar respublikanın vergi orqanları üzrə müəyyən edilmiş proqnoz 102 faiz icra olunub. Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun büdcəsi üzrə proqnoz 116,9, İşsizlikdən Sığorta Fondunun büdcəsi üzrə proqnoz isə 110,9 faiz icra edilib.

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq



25 vergiödəyicisində aparılan monitorinq zamanı 33 yeni əmək müqavilələsinin bağlanılmasına nail olunub.

Hesabat dövründə “bir pəncərə” qeydiyyat sistemi vasitəsilə 15 kommersiya hüquqi şəxs və 7 publik hüquqi şəxs dövlət qeydiyyatına, habelə 6 qeyri-kommersiya hüquqi şəxs vergi uçotuna götürülüb. Həmçinin bu dövrdə yerli vergi orqanları tərəfindən 1223 fiziki şəxs sahibkarlıq uçotuna alınıb ki, qeydiyyata alınan sahibkarlıq subyektlərinin 75,7 faizi muxtar respublikanın rayonlarının payına düşüb.

İclasda çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti rəisinin müavini, baş vergi xidməti müşaviri Fərrux Əkbərov nəzərə çatdırıb ki, hesabat dövründə vergiödəyicilərinə xidmət strukturları tərəfindən fiziki və hüquqi şəxslərdən daxil olmuş 2163 yazılı müraciət cavablandırılıb, maarifləndirmə istiqamətində vergiödəyiciləri ilə 11 görüş keçirilib. Bu məqsədlə onların elektron ünvanına, ümumilikdə, 84 min 940 bildiriş və müraciət göndərilib.

Hesabat dövrünə uyğun olaraq nağdsız ödənişlərin həcminin artırılması məqsədilə “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbir keçirilib, nağdsız hesablaşmalardan istifadə edərək 400 manatdan yuxarı məbləğdə ödəniş aparan vətəndaşların ödədikləri məbləğə müvafiq olaraq 426 vətəndaşa 25 min manatlıq müxtəlif hədiyyələr təqdim edilib.

İclasda məruzə ətrafında digər çıxışlar dinlənilib.

* * *

2020-ci ilin 6 ayının yekunları və qarşıda duran vəzifələr mövzusunda keçirilən iclasda Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti publik hüquqi şəxsin direktoru Bəxtiyar Məmmədov bildirib ki, cari ilin 6 ayı ərzində muxtar respublikada sığortanın daha da inkişafı məqsədilə maarifləndirici işlər aparılıb, təşkil olunan tədbirlərdə icbari və könüllü sığortaların mahiyyəti, vaxtında sığorta müqavilələri bağlanılmasının faydaları, sığorta ödənişlərinin qaydaları haqqında geniş məlumat verilib. Bildirilib ki, Dövlət Sığorta Xidməti tərəfindən 2020-ci ilin birinci yarısında həyat və qeyri-həyat sığorta sinifləri üzrə 9-u icbari, 13-ü könüllü olmaqla, 22 sinif üzrə aktiv sığorta yığımı həyata keçirilib, 2019-cu ilin 6 ayı ilə müqayisədə sığorta haqlarının toplanması həcmi 4 faiz artıb.

Vurğulanıb ki, hesabat dövründə muxtar respublikada sığorta fəaliyyəti üçün ən əhəmiyyətli addım sığorta qurumunun hüquqi-təşkilati formasının dəyişdirilməsi olub. Belə ki, sığorta işi sahəsində şəffaflığın artırılması və sığorta fəaliyyətinin təkmilləşdirilməsi, eyni zamanda iqtisadiyyatın tərkib hissəsi olan sığorta sisteminin imkanlarının geniş və səmərəli istifadə edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 22 aprel tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ləğv edilərək onun əsasında Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti publik hüquqi şəxsi yaradılıb.



Ötən dövrdə görülmüş işləri təhlil edən direktor bildirib ki, xidmət tərəfindən aparılan sığorta fəaliyyəti üzrə sığorta haqlarının yığımında ötən ilin müvafiq dövrü ilə müqayisədə həyat sığortası sahəsində 1,4, qeyri-həyat sığortası sahəsində isə 3,7 faiz artım olub. Növlər üzrə baxdıqda artım icbari sığortalarda 1,3, könüllü sığortalar üzrə isə 22,7 faiz təşkil edir.

Cari ilin 6 ayı ərzində kənd təsərrüfatı bitkilərinin məhsulunun sığortası üzrə 752 müqavilə bağlanılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 127 ədəd çoxdur. Kənd təsərrüfatı heyvanlarının sığortalanmasında isə daha çox artım olub. Belə ki, 2020-ci ilin ilk yarısında 621 müqavilə bağlanılıb, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 487 ədəd müqavilə çoxdur. Ümumilikdə, kənd təsərrüfatı heyvanlarının sığortalanması üzrə sığorta haqlarının toplanmasında 7,8 dəfə artım olub. Kənd təsərrüfatı texnikasının sığortalanması üzrə də işlər hazırda davam etdirilir, bu növ üzrə 2,7 faiz artım olub.

Sonra çıxışlar olub.

**Xəbərlər şöbəsi**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya öz işini qanunvericiliyin tələblərinə uyğun olaraq yerinə yetirmiş, fəaliyyətində peşəkarlığın və keyfiyyətin artırılması, şəffaflıq və obyektivliyin təmin edilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarətin gücləndirilməsi istiqamətində tədbirləri iyul ayında da davam etdirmişdir.***

## Qanunvericiliyin tələbləri diqqət mərkəzində saxlanılır



Ötən ay Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən müvafiq dövlət orqanlarının müraciətləri nəzərə alınmaqla vakant vəzifələrin tutulması üçün 2 nəfərin iştirakı ilə test imtahanları keçirilmişdir. Bundan əlavə, dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilmiş 5 daxili müsahibədə komissiyanın nümayəndəsinin iştirakı təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikasında şahmatın tədrisinin keyfiyyətinin yaxşılaşdırılması və müəllimlərin peşəkarlıq səviyyəsinin yoxlanılması məqsədilə 20 iyul 2020-ci il tarixdə şahmat fənnini tədris edən müəllimlərin növbəti ödənişsiz sertifikasiyası keçirilmişdir. Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın test mərkəzində keçirilən sertifikasiya imtahanında 20 müəllim iştirak etmiş, test tapşırıqlarının ən azı 50 faizini düzgün cavablandırmış 18 nəfər müvafiq keçid balını toplamışdır.

“Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Sərəncamın icrasının təmin edilməsi məqsədilə “Səyyar dövlət qulluğu xidməti könüllüyü” startap layihəsi rayonlarda həyata keçirilmişdir. Komissiyanın əməkdaşları və könüllülər cari ilin 21 iyul tarixində Şərur rayonunda, 24 iyul tarixində isə Ordubad rayonunda vətəndaşlara səyyar xidmət göstərmişlər. Xidmət zamanı işə qəbul üçün elan edilmiş müsabiqələrdə iştirak etmək istəyən 77 vətəndaşa operativ köməklik göstərilmişdir.

İyul ayında Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsində vakant vəzifələrin tutulması üçün və müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbul üçün elan edilmiş müsabiqələrə sənəd qəbulu davam etdirilmişdir. 15 iyul 2020-ci il tarixdə müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu üçün elan edilmiş müsabiqəyə 193 vakant vəzifə çıxarılmış və sənəd qəbulu 17 avqust 2020-ci il tarixədək davam edəcəkdir. 29 iyul 2020-ci il tarixdə dövlət vergi orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqəyə 20 vakant vəzifə çıxarılmışdır. Müsabiqəyə sənəd qəbulu 31 avqust 2020-ci il tarixədək davam edəcəkdir.

Hesabat dövründə ehtiyat kadrlarla işin təşkili diqqətdə saxlanılmışdır. Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın ehtiyat kadrlar siyahısında olan 21 namizəddən 2-si işlə təmin olunmuşdur. İyul ayında komissiya tərəfindən təşkil olunmuş hazırlıq kurslarında 117 nəfər, həmçinin sınaq imtahanlarında 80 nəfər iştirak etmişdir. Keçirilən bütün tədbir, seminar və test imtahanlarında sosial məsafə qorunmuş, tibbi maskalardan istifadə olunmuş və digər sanitar-gigiyenik tələblərə əməl edilmişdir.

27 iyul 2020-ci il tarixdə Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada 2020-ci ilin birinci yarımilinin yekunları və qarşıda duran vəzifələrlə bağlı kollegiya iclası keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Ötən ay 702 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb



Muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı və torpaqlardan səmərəli istifadəyə nəzarət 2020-ci ilin iyul ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılmışdır.

Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi ilə əlaqədar rayonun Babək şəhəri, Cəhri və Nehrəm qəsəbə inzibati ərazi dairələrinin, ərazi vahidlərinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri hazırlanmışdır. Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Babək rayonunun Nehrəm qəsəbəsinin və Araz kəndinin ərazisində aparılan monitorinqlər başa çatdırılmış, aşkar olunmuş torpaqdan qanunsuz istifadə faktlarının aradan qaldırılması istiqamətində iş aparılmışdır. Torpaqların elektron kadastr uçotunun aparılması üçün Şahbuz rayonunun 5 bələdiyyəsi üzrə reyestr məlumatları yeni xəritələrin üzərinə köçürülmüş, torpaq reyestrində saxlanılan məlumatlarla uyğunluğu yoxlanılmışdır.

İyul ayında 702 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, 556 texniki sənəd hazırlanmış, yeni yaranmış 35 daşınmaz əmlak obyektinə ünvan verilmiş, həmçinin 104 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 8 yaşayış məntəqəsində 55 vətəndaşın müraciətinə baxılmışdır. 21 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***




*Muxtar respublikada aqrar sahənin inkişafına göstərilən davamlı dövlət qayğısı neçə illərdir ki, öz bəhrələrini verməkdədir. Bu, ərzaq təhlükəsizliyinin və özünüməşğulluğun təmin edilməsində də özünü bariz şəkildə göstərir. Buna nail olunmasında kənd təsərrüfatı mühüm rola malikdir. Ona görə də bu sahənin inkişafı istiqamətində həyata keçirilən kompleks islahatlar, qəbul edilmiş Dövlət proqramlarının uğurlu icrası, subsidiyaların verilməsi, müasir texnologiyaların tətbiqi, meliorasiya və irriqasiya sistemlərinin texniki imkanlarının genişləndirilməsi, keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması, məhsul istehsalçılarına güzəştli şərtlərlə kreditlərin verilməsi əkinçiliyə marağı daha da artırmaqdadır. Bu sırada taxılçılıq öndə durur.*



## Muxtar respublikanın taxılçıları cari ildə 115 min 649 ton məhsul tədarük ediblər

Faktlara müraciət edək. Cari ilin məhsulu üçün muxtar respublikamızda 36 min 879 hektar sahədə taxıl əkilmişdir. Ötən il isə bu rəqəm 33 min 308 hektar təşkil edirdi. Zəmilərdən 115 min 649 ton məhsul tədarük edilib. 2019-cu ildə bu rəqəm 102 min 984 ton olub. Hektarın orta məhsuldarlığı da artıb. Əgər keçən il məhsuldarlıq 30,9 sentner idisə, bu il 31,4 sentner olub.



Təbii ki, bu nəticəyə nail olunmaqda bir neçə amil başlıca rol oynayıb. Bu sırada ilk olaraq dövlət qayğısını qeyd etməliyik. Məhz bu qayğının ifadəsidir ki, cari ildə də meliorasiya-irriqasiya tədbirləri davam etdirilib. Uzun illər əkilməyən və istifadəsiz qalan torpaq sahələrinə yeni suvarma kanallarının çəkilməsi, müasir meliorasiya və irriqasiya sistemlərinin qurulması əkin dövriyyəsinə yeni sahələrin qatılmasında mühüm rol oynayıb. Belə ki, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi üçün Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 800 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilir, 3,5 kilometr ana xətt, müxtəlif diametrli borularla 28,4 kilometr paylayıcı boru xətti çəkilib, 294 supaylayıcı hovuz və suvarma hidrantı quraşdırılıb. Bu tədbir Şahbuz rayonunun Türkeş kəndi ərazisində də həyata keçirilib. Belə ki, 294 hektar sahədə də qapalı suvarma şəbəkəsinin tikintisi aparılıb, 5,15 kilometr ana xətt, müxtəlif diametrli borularla 7,75 kilometr paylayıcı boru xətti çəkilib, 88 supaylayıcı hovuz və suvarma hidrantı quraşdırılıb.

Qeyd edək ki, muxtar respublika ərazisində yerləşən və 303,5 milyon kubmetr su tutumuna malik olan sututarlar var. Həmin sututarlara 241,6 milyon kubmetr su ehtiyatı toplanılıb. Su istifadəçilərinə mexaniki üsulla və öz axını ilə 184,73 milyon kubmetr suvarma suyu verilib, təkrar suvarma nəzərə alınmaqla, 156 min 266 hektar torpaq sahəsi su ilə təmin olunub.

Aqrar sahədə nəzərdə tutulan xidmət işlərinin yerinə yetirilməsini sürətləndirmək, sahibkarların əməyini yüngülləşdirmək, onları lazımi texnika ilə vaxtında və güzəştli şərtlərlə təmin etmək məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 177-si 2020-ci ilin yanvar-iyun aylarında olmaqla, ümumilikdə, 2916 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilib. Cari ilin ilk altı ayında 164 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə icarəyə verilib, 9-u nağd yolla satılıb. Bu dövrdə məhsul istehsalçıları 9008,3 ton mineral gübrə ilə təmin olunublar.



İstehsal olunmuş məhsulların ilboyu keyfiyyətli şəkildə istehlakçılara çatdırılmasında soyuducu anbarlar mühüm rola malikdir. Cari ilin ötən dövründə tutumu 200 və 2005 ton olan 2 soyuducu anbar yaradılıb, 1 soyuducu anbarın yaradılması davam etdirilir, digəri isə genişləndirilib.

Həyata keçirilən belə məqsədyönlü tədbirlər isə bəhrələrini verib. Belə ki, uzun illər taxılçılıqda yaxşı təcrübə qazanmış torpaq mülkiyyətçiləri sahələrə vaxtlı-vaxtında aqrotexniki qulluq göstərib, taxıl zəmilərində yüksək məhsuldarlığa nail olmaq üçün sahələrin suvarılmasını, ziyanvericilərə qarşı müvafiq işlərin görülməsini diqqətdə saxlayıb, tələb olunan bütün təsərrüfat işlərini yerinə yetiriblər.

Artıq taxıl tədarükü başa çatıb. İlin nəticələrindən fərəhlə söhbət açmaq olar. Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonu bu il liderliyi ələ alıb. Bölgənin taxılçıları 4865 hektar taxıl zəmisindən 19 min 185 ton məhsul toplayıblar. Bu isə orta məhsuldarlığın 39,4 sentner olması deməkdir.

"Şərur Aqrotexservis" Səhmdar Cəmiyyətinin sədri Aqil Məmmədov deyir ki, cəmiyyətə məxsus olan texnikalarla sahələrin şumlanmasında, taxıl əkinində və tədarükündə taxılçılara yaxından köməklik göstəriblər. Hazırda cəmiyyətin dəyirmanında taxıl üyüdülməsi həyata keçirilir.

Aqil Məmmədovun özü də taxılçılıqla məşğul olur. Cari ildə o, 24 hektar taxıl əkini sahəsindən 90 ton məhsul götürüb. Bu rəqəm məhsuldarlığın 40 sentner olması deməkdir. Sahibkar bunu son hədd hesab etmir: – Çoxları elə düşünür ki, toxumu torpağa atdın, zəmini suvardın bununla iş bitdi. Əslində, belə deyil. Taxıl da qayğı istəyir. Bu istəyin qarşılığını verə bilsən, torpaq sənin zəhmətinin əvəzini birə-beş ödəyəcək. Mən bunu neçə illərdir ki, öz fəaliyyətimdə görmüşəm. Tədarük etdiyim taxıldan yaxın günlərdə başlayacağım əkin üçün toxumluq götürmüşəm. Bir hissəsini üyüdərək ailəm üçün ayırmış, qalanını da satmışam. Hazırda əkəcəyim sahələrdə şum qaldırılması ilə məşğulam. Çalışıram ki, builki əkin kampaniyasını da vaxtında başa çatdıram.

Sərhəd bölgəmiz sayılan Sədərək rayonu taxıl tədarükündə 36,4 sentner məhsuldarlığa nail olub. Bu rayonda 2357 hektar sahədən 8 min 591 ton məhsul tədarük edilib.

Taxıl tədarükündə 3-cü yer Babək rayonuna məxsusdur. Bu bölgənin taxılçıları 11 min 767 hektar taxıl sahəsindən 37 min 702 ton məhsul tədarük edərək məhsuldarlığı 32 sentnerə çatdırıblar. Kəngərli rayonunun taxılçıları isə 30 sentner məhsuldarlığa nail olublar. Digər yerlər Naxçıvan şəhərinə, Ordubad, Şahbuz və Culfa rayonlarına məxsusdur.

*Bu gün diyarımızın hər bir taxılçısı, bu sahə ilə məşğul olan ailə təsərrüfatları və sahibkarlar sevinirlər ki, əvvəlcədən həyata keçirilən hazırlıq tədbirləri hesabına torpağa bir dən belə, havayı düşməyib. Artıq 2021-ci ilin bol məhsulunun əsasını qoymaq üçün sahələrdə şum qaldırılmasına başlanılıb. İnanırıq ki, bu mövsüm də vaxtında və uğurla başa çatdırılacaq.*

## Yeni kompleksin istifadəyə verilməsi insanlara növbəti qayğının ifadəsidir



***Muxtar respublikanın son üç onillikdə keçdiyi inkişaf və tərəqqi yoluna nəzər salsaq, qədim diyarda möhtəşəm quruculuq tədbirlərinin həyata keçirildiyini və həmin tədbirlərin geniş coğrafiyaya malik olduğunu görərik. Fərq yoxdur, istər şəhər, istərsə də ən ucqar dağ və sərhəd kəndlərində aparılan bu işlərdə bir ali məqsəd əsas götürülüb: insanların layiq olduqları səviyyədə yaşamasını təmin etmək. Təbii ki, bu tədbirləri muxtar respublika sakinləri ürəkdən dəstəkləyir və minnətdarlıqlarını bildirirlər. Bu sırada naxçıvanlıların içməli su ilə təminatı xüsusi yer tutur. Neçə illərdir ki, Naxçıvan şəhərində, rayon mərkəzlərində və bu ünvanlara yaxın kənd yaşayış məntəqələrində bu istiqamətdə görülən işlər öz bəhrələrini verməkdədir.***

İyul ayının 24-də Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksinin istifadəyə verilməsi də həmin tədbirlərdən biridir və rayon sakinlərinə əsl bayram sevinci yaşadıb. "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi"nə 2012-ci ildə başlanılıb, Şərur şəhərində, Mahmudkənd, Yengicə, Zeyvə və Düdəngə yaşayış məntəqələrində içməli su, Şərur şəhərində isə həm də kanalizasiya şəbəkələri inşa olunub. Həmin ünvanlarda 240 kilometrə yaxın içməli su, 50 kilometrə yaxın kanalizasiya xətləri çəkilib. Bununla da 30 minə yaxın sakin içməli su ilə təmin olunub. İnşa edilmiş sutəmizləyici qurğuda su ozonla təmizlənir, mexaniki, torba və katric filtrlərdən keçirildikdən sonra anbarlara yığılır, öz axını ilə şəbəkəyə ötürülür. Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksinin tikintisinə isə ötən ilin fevral ayında başlanılıb. İlk olaraq qeyd edək ki, Arpaçay subölücüsündə qalereya inşa edilib. Adıçəkilən layihəyə əsasən tikilən qalereya Arpaçay subölücüsündə gölün dibindən 6 metr dərinlikdə, eni 1,3, hündürlüyü 2, uzunluğu isə 134 metrdir.

Kompleks 2 hektar sahəni əhatə edir. Burada sahəsi 700 kvadratmetr olan sutəmizləyici qurğu, gözətçi binaları, hər birinin tutumu 400 kvadratmetr olan 2 xam, ümumi tutumu 27 min 500 kubmetr olan 3 təmiz su anbarı yerləşir. Qalereyadan kompleksə daxil olan Almaniyada istehsal edilmiş ozon qurğusu vasitəsilə dezinfeksiyadan sonra xam su anbarlarına verilir. Burada suyun təmizlənməsi həyata keçirilir. Bunun üçün İsveçrə və Türkiyə istehsalı olan 3 mərtəbəli filtr qurğularından istifadə edilir, suya natrium hiproxlorid vurulur, təmizlənmiş su anbara yığılır və şəbəkəyə verilir.

Sutəmizləyici qurğu gün ərzində 20 min 400 kubmetr və ya saniyədə 236 litr sutəmizləmə gücünə malikdir.

Binada 5 xətt quraşdırılıb. Sutəmizləyici qurğuda 2 yeni xəttin yaradılması üçün ehtiyat yer ayrılıb. İş prosesi tam avtomatlaşdırılıb. Su sərfi 1150 litrdir. Buradan su anbarına qədər plastik borularla 1500 metr xətt çəkilib, üzərində 2 subosaldıcı inşa olunub. Su anbarlarından rayon mərkəzinə qədər isə 9,5 kilometr uzunluğunda plastik boru xətti çəkilib.



İnsanlara göstərilən belə qayğının onlar tərəfindən yüksək dəyərləndirildiyini də vurğulamaq yerinə düşər. Qeyd edim ki, rayonda olarkən bir neçə şərurlunun ürək sözlərini dinlədim. Şərur Rayon Mərkəzi Xəstəxanasının həkimi Vaqif Babayev bildirdi ki, muxtar respublikada su təsərrüfatı sahəsində qarşıda duran ən mühüm vəzifələrdən biri insanları sağlam və ekoloji cəhətdən təmiz su ilə təmin etməkdir. Son illər bu istiqamətdə xeyli iş görülüb. Bu baxımdan Şərur rayonu da istisna deyil. Bölgədə bir neçə layihənin uğurlu həlli bütün şərurluları ürəkdən sevindirib. Yeni layihə də onlardan biridir. Bunun üçün dövlətimizə dərin minnətdarlığımızı bildiririk.

Şərur şəhər sakini, müəllimə Zülfiyyə Məmmədova:

– Su təmizlikdir, aydınlıqdır. Su həyat deməkdir. Həyatımız isə ərzaq təhlükəsizliyinin təmin olunmasından xeyli dərəcədə asılıdır. Ona görə muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı xarakter alması hər birimizə böyük qayğının ifadəsidir. Şərurlulara göstərilən belə qayğı onları yurd yerinə daha qırılmaz tellərlə bağlayır, onların qurub-yaratmaq əzmini yüksəldir, muxtar respublikamızın, ölkəmizin daha da inkişafı naminə fəal olmağa çağırır.

Beləcə, uzun illərdir ki, davamlı xarakter alan yeni bir layihənin reallığa çevrilməsi insanların layiq olduqları səviyyədə yaşamalarına yaşıl işıq yandırıb. Bu işıq hər birimizə qayğının ifadəsidir.

**Muxtar MƏMMƏDOV**

## Yaylaqlardakı heyvandarlarla maarifləndirici görüşlər keçirilib

Ordubad rayonunun Tillək yurdu və Saqqarsu yaylaqlarındakı obalarda heyvandarlarla görüşlər keçirilib. Rayon İcra Hakimiyyətinin əməkdaşı Zamiq Babayev, rayon Baytarlıq İdarəsinin müdiri Pamir Hüseynov, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Əyyub Abdullayev və Dövlət Baytarlıq Xidmətinin sektor müdiri Fariz Şıxəliyev çıxış edərək vurğulayıblar ki, dəniz səviyyəsindən 2500-3000 metr hündürlükdə yerləşən yaylaqlarda Kəngərli, Babək və Ordubad rayonlarının heyvandarları 15 min başdan artıq qoyun-quzu və 700 baş qaramal bəsləyirlər. Oba sakinlərinə mütəmadi olaraq səhiyyə və ticarət xidmətləri göstərilir, mütəxəssislərlə onların görüşləri təşkil edilir.

Görüşdə otlaqlardan düzgün istifadə, oba yerlərində sanitar-təmizlik işlərinə əməl olunması və baytarlıq tədbirlərinin vaxtında aparılmasının əhəmiyyətindən söhbət açılıb.

Sonra mütəxəssislər yaylaqlarda bəslənilən heyvanların sağlamlığı ilə bağlı məsləhət və tövsiyə veriblər.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

*Hər daşına, qayasına qədim izlər həkk olunan, hər dağı, dərəsi tarix qoxan, hər abidəsi dünənindən xəbər verən diyarımız böyük bir tarixi keçmişindən özü söhbət açır. Qürur duyduğumuz bu söhbətləri amalı qalasından, qayasından, abidəsindən, malikanəsindən tək bir daş parçasının düşməməsi olan əllərin inşa etdiyi dünənlə bu günü birləşdirən böyük bir körpü üzərində dinləyirik. Qədimdən gələn səsləri dinlədikcə və bu körpüdən muxtar respublikamızın 25 illik mənzərəsini seyr etdikcə bu zaman ərzində tariximizi qoruyan insanın özünün yeni bir tarix yazdığının da şahidi oluruq. Bu tarix blokada Naxçıvanında yazılır. 30 ilə yaxın dövrdə mənsub olduğu dövlətlə quru yol vasitəsilə heç bir əlaqəsi olmayan, blokadanın ilk illərinin acı və məşəqqətli günlərini yaşayıb, yaşananlara mərdliklə sinə gərən, keçmişindən güc alıb, müasirliyinə güvənən Naxçıvanda... Qorunan, bərpa olunan abidələri ilə tarixləşən, yaşanan dünənləri ilə muzeyləşən Naxçıvanda...*



# Yurdumun sərkərdə əzəmətini, general ruhunu yaşadan malikanədə bir gün...

### *Cəfərqulu xanın malikanəsində: XIX əsrdən XXI əsrə*

Bütün bunları dəqiqələrlə qədim və əzəmətli görüntüsünü seyr etdiyim bənzərsiz memarlıq abidəsinin qarşısında düşünürəm – Cəfərqulu xanın malikanəsində. Şəhərimizin mərkəzində, Atatürk küçəsində yerləşən, qədimliyi qorunmaqla bərpa edilən bu malikanə ətrafındakı müasir tikililərə necə bir ata övladına ulu babalarından söhbət açar, eləcə dünənindən "danışır". XXI əsrə XIX əsrin ərmağanı olan, məşhur Kəngərlilər sülaləsinə məxsus malikanəyə Azərbaycanın hərb tarixində misilsiz xidmətləri olan, Vətənimizə Cəmşid Naxçıvanski kimi şəxsiyyət bəxş edən Cəfərqulu xanın malikanəsinə daxil oluram. İlk görünüşdən saysız otaqları ilə uşaq nağıllarındakı 40 otaqlı xan-bəy evlərini xəyalımda təzələyən bu malikanə qədim arxitekturası, hündürlüyü ilə bir xan evi, bu gün isə muzeyləşən diyarımızın daha bir muzeyinin ünvanıdır.

### *Qorunan ata ocağı, əbədiləşdirilən xatirə*

Bəli, gəzdiyim bu malikanə Azərbaycanın görkəmli hərb xadimi, Azərbaycan ilk milli atıcı diviziyasının komandiri olmuş general Cəmşid Naxçıvanskinin ata ocağıdır. Bu ocağın hər otağında onun addımları, hər divarında nəfəsi duyulsa da, hər böyük şəxsiyyətə qismət olmur ata ocağında əbədiləşmək. Çünki tarixin keşməkeşli yollarında çox ata ocaqları viranəyə çevrilir. Qorumaq, yaşatmaq, gələcək nəsillərə ərmağan etmək bir zəhmət, hünər, vətəndaşlıq hissidir. Əgər Cəfərqulu xanın malikanəsinin qədirbilən naxçıvanlılar tərəfindən qorunaraq günümüzə çatdırılması tək Naxçıvan üçün deyil, ölkəmiz üçün dəyərli olan bu xan nəslinə hörmətin təzahürü idisə, Cəmşid Naxçıvanskinin adının və xatirəsinin əbədiləşdirilməsi isə bağlı ulu öndər Heydər Əliyev tərəfindən 1971-ci il 23 iyun və 1981-ci il 8 avqust tarixlərində imzalanan qərarlar görkəmli sərkərdənin irsinə, ümumilikdə, xalqın böyük ehtiramının təzahürü oldu. Bu tarixi qərarlarla Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbi, Naxçıvan şəhərində isə Cəmşid Naxçıvanski Muzeyi yaradılmış, bir məktəbə və küçəyə onun adı verilmişdir. 1982-ci ildən doğma ata evində fəaliyyətə başlayan Cəmşid Naxçıvanski Muzeyi illərdir ki, böyük sərkərdənin keçdiyi həyat yoluna aid tarixi sənədlərin, eksponatların qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması və təbliğində mühüm rol oynayır.

Ötən ilin sentyabr ayında muzeyin yenidənqurmadan sonra istifadəyə verilməsi isə müstəqillik illərinin ən şanlı səhifələrinə çevrilən muzeyləşən diyarımızda qədim tariximizə göstərilən qayğı, verilən dəyərdir. Elə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muzeyin açılışında söylədiyi dəyərli fikirlər də bu böyük nəslin xidmətlərini yenidən tarixin səhifələrinə yazdı: ***"Xalqımız qəhrəmanlığı və şücaəti ilə seçilən görkəmli sərkərdələri ilə tanınır. Böyük hərb sənətinə malik olan Azərbaycanda bu sənəti inkişaf və davam etdirən Naxçıvanskilər nəslinin nümayəndələri olan generalların mühüm xidmətləri vardır. Onlar şərəfli döyüş yolu keçmiş, gələcək nəsillər üçün nümunəvi vətənpərvərlik irsi qoyub getmişlər. Cəmşid Naxçıvanski də bu nəslin yetirdiyi altı generaldan biri olmuşdur".***

### *Şəxsi əşyalarda XIX əsrin mənzərəsi*

Möhtəşəm xan evinin Cəmşid Naxçıvanskiyə ayrılmış hissəsində – muzeydə gəzirəm. Muzeyin fondundakı 5400-ə yaxın eksponatın 500-ə yaxınının nümayiş olunduğu 6 ekspozisiya zalının hər birini seyr etdikcə, sanki maraqlı bir tarixi romanı oxuyub başa çatdırıram.

Birinci ekspozisiya zalında yer alan ümummilli liderimiz Heydər Əliyevin ***"XIX-XX əsrlərin tarixini götürsək, Naxçıvan xanları – Kəngərlilər sülaləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi"*** iki cümləlik dəyərli kəlamı ilə bir xan nəslinin kimliyi haqqında müfəssəl məlumat əldə olunur. Burada Cəmşid Naxçıvanskinin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı sənədlər, onun uşaqlıq və gənclik, hərbi təhsil illəri, Birinci Dünya müharibəsində iştirakı, Azərbaycan Xalq Cümhuriyyətinin təşkil etdiyi Milli Ordu quruculuğunda, Azərbaycanda sovet hakimiyyəti qurulandan sonrakı dövrdə və Moskvada Frunze adına Hərbi Akademiyada hərbi-pedaqoji fəaliyyəti, təltifləri və repressiyaya məruz qalması, eləcə də generalın ailəsi və yaxın qohumları ilə bağlı sənədlər, kitablar, fotoşəkillər ayrı-ayrı bölmələrdə mühafizə edilir.

Muzeydə diqqətçəkən məqamlardan biri Cəmşid Naxçıvanskinin şəxsi, ailəsinə məxsus ev və məişət əşyalarıdır. Cəfərqulu xanın evinin yadigarları olan kitab rəfləri, bufet, yemək dəsti, bədənnüma güzgü, samovar, mücrü, Naxçıvan xalçaçılıq məktəbinə aid buxovlu yun xalça, kilim nəfisliyi ilə xan evinə mənsubluğunu təsdiqləməklə bərabər, həm də XIX əsrdə Naxçıvan sənətkarlığının böyük inkişaf mənzərəsini canlandırmaqla gözlər önündə. Eləcə də hərb tariximizin bu görkəmli simasının şəxsi əşyaları – oxuduğu kitablar, fotoaparat, kompas, stolüstü saat, su qabı, döyüş çantası, böyüdücü, eynək, qəlyan, siqaret qabı, çıraq, şamdan böyük şəxsiyyətin əllərinin izi yaşadığı üçün çox əziz və dəyərli olmaqla yanaşı, onun həyatının ayrı-ayrı dövrlərini canlandırır.

### *Bir-birinə zidd olan üç quruluşun böyük şəxsiyyəti*

Bir-birinə zidd olan üç quruluş... Cəmşid Naxçıvanskinin yaşadığı çar Rusiyası, Azərbaycan Xalq Cümhuriyyəti və sovet hakimiyyəti dövrlərini Ali Məclisin Sədri belə siyasi təhlil edib. Bu dövrlərin hər birinin Vətən, torpaq, millət təəssübkeşi olan Cəmşid Naxçıvanski haqqında muzeyin açılış mərasimində Ali Məclis Sədrinin söylədiyi dəyərli fikirlər generalın yaşadığı dövrləri, həyatını gözlər önündə canlandırır: ***"Şərəfli döyüş yolu keçmiş general Cəmşid Naxçıvanski Vətən məhəbbətini şəxsi maraqlarından üstün tutan, yüksək ali keyfiyyətlərə malik, zəngin mənəviyyatlı sərkərdə kimi qısa ömrünə keşməkeşli hərb tarixini sığdırmağı bacarmış, sıravi əsgərdən general rütbəsinədək yüksəlmişdir... Həyatının məqsədini Vətənə xidmətdə görən Cəmşid Naxçıvanski bir-birinə zidd olan üç quruluşda yaşamasına baxmayaraq, şərəfli zabit adına ləkə gətirməmiş, təmsil etdiyi nəslin və xalqın layaqətini qorumuşdur. O, bu yolda bütün çətinliklərə sinə gərmiş, peşəkar sərkərdə bacarığı və sədaqəti göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin müdafiəsində iştirak***





***etməsi, 1920-ci ilin əvvəllərində Dağlıq Qarabağda azərbaycanlı əhaliyə amansız divan tutan erməni quldur dəstələrinin komandanlıq etdiyi alay tərəfindən darmadağın edilməsi və qısa müddətdə orada əmin-amanlıq yaratması xalqının müstəqilliyini sevən sərkərdə kimi Cəmşid Naxçıvanskinin şöhrətini daha da artırmışdır. Azərbaycan hərb tarixində Cəmşid Naxçıvanski ilk milli atıcı diviziyasını yaratmış və ona komandanlıq etmişdir".***

Bir-birinə zidd olan üç quruluş... Konkretləşdirilmiş bu tarixi anlayış gənc nəslin Cəmşid Naxçıvanski dövrünü öyrənməsi yollarına salınan gur işıqdır.

### *Sonuncu generalın son taleyi*

Muzeyləşmiş ata ocağının hər guşəsində böyük bir ömrün ayrı-ayrı dövrlərinin qürurverici anlarını izləmək üçün səhərdən bəri birindən digərinə böyük həvəslə keçib ekspozisiya zallarından növbətisində – Kəngərlilər sülaləsinin son generalının son taleyinin dəhşətini yaşadığım guşə qarşısında dikilib qalmışam. Generalın həbsi üçün 20 may 1938-ci ildə yazılmış 3191 nömrəli həbs orderi. Bu orderlə tək Cəmid Naxçıvanskinin yox, yüzlərlə azərbaycanlı repressiya qurbanlarının obrazı bir-bir ötür gözlərim qarşısından. Birdən-birə, sanki bu qurbanlardan olan şair və bəstəkarların yazıb bəstələdiyi hərbi marşın melodiyası bürüyür muzeyi. Yüzlərlə insana tuşlanan güllələrin səsi qarışır bu melodiyaya. Ətrafdakı gurultu elə bil bir suala cavab axtarır ki, sakitləşin, sussun. Bir yox, yüzlərlə insanın verdiyi sualın – "Nə üçün?"lərin cavabını axtarır. Bəs bu sualların cavabı varmı?

Tarix sübut edir ki, imperiyalı dövlət kiçik dövlətləri, imperiya ideologiyası isə tabeçiliyində olan millətləri, onların düşünən zəkalarını, böyük şəxsiyyətlərini repressiyaya məruz qoya bilir. Xalqımızı 70 ildən artıq totalitar rejiminin zəncirlərində saxlayan sovet hakimiyyətinin bizə "töhfələrindən" idi repressiya. Sən demə, kimlərəsə gözdağı olan, təfəkkürü ilə narahatlıq doğuran yüzlərlə düşünən beyinlərimizin, danışan dillərimizin, həmin repressiyanın qurbanları siyahısında yer alan şəxsiyyətlərimizin, eləcə də Cəmşid Naxçıvanskinin ömrünü də repressiya sonlandıracaqmış...

Bayaqdan bəri ətrafda gurlayan o vəhşət dolu musiqi birdən səngiyir, yerini yenə də repressiya qurbanı olan böyük şair Əhməd Cavadın və repressiya illərində mübarizlik, əzmkarlıq nəğmələrinə görə dəfələrlə narahat edilən – dindirilən Üzeyir Hacıbəyovun bəstələdiyi himnimiz alır. Müstəqilliyimizin ən böyük məyarı olan himnimizi. Qürur hissi duyuram. Bu qürur hissinə böyük fədakarlıqla və əzmkarlıqla yaradılan, generalın adını daşıyan hərbi liseyin məzunlarının bu gün Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü qoruyan zabit və əsgərlərin olduğu da qarışır.

Cəmşid Naxçıvanski bəraətini ötən əsrin 70-ci illərində Azərbaycanda hakimiyyətdə olan ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi tarixi missiya ilə alır. Xan nəslinə əsl Azərbaycançılıq, milli söy-kökə yaraşacaq səviyyədə yanaşma Cəmşid Naxçıvanskinin siması bütün Kəngərlilər sülaləsinə verilən dəyər olur.

### *Araz-Türk Respublikasının qərargahı*

Nəsillərin adları nə üçün tarixə yazılır? Nə üçün onlar əsrlər sonra da böyük iftixar hissi ilə anılırlar? Təbii ki, əməllərinə, şücaətlərinə görə. O nəsillər ziyalı olduqda isə mənsub olduqları Vətən, diyar üçün tarixi əhəmiyyətli işləri ilə yaddaşlara köçürlər. Kəngərlilər nəsli kimi. Erməni daşnaklarının Naxçıvana ardı-arası kəsilməyən basqınlar etdikləri, əhalini qorxu və vahimə içərisində saxladıqları, onları soyqırıma məruz qoyduqları, Naxçıvanı azərbaycanlılardan təmizləməyə çalışaraq onu "böyük Ermənistan"a qatmaq istədikləri bir dövrdə diyarımızın təhlükəsizliyini təmin etmək və ermənilər tərəfindən işğalına yol verməmək üçün yaradılan Araz-Türk Respublikasının qərargahını Cəfərqulu xanın öz malikanəsində yerləşdirməsi əsl xana, xanlığa yaraşan bir əməl olmaqla yanaşı, həm də torpağa məhəbbətin bariz nümunəsi, insanların əmin-amanlığına, müstəqilliyə sonsuz istəyin göstəricisi olmuşdur.

1918-ci ildən 1920-ci ilədək fəaliyyət göstərən, xan evindəki qərargahına məxsus otaqda asılan, tarixçilərimizin qeyd etdiyi kimi, ərazisinə Naxçıvan və Şərur-Dərələyəz qəzaları, Ordubad mahalı, Eçmiədzin qəzasının bir hissəsi, İrəvan qəzasının Sərdarabad, Uluxanlı, Qəmərli, Vedibasar və Mehri bölgələri daxil olan, sahəsi 8,7 min kvadratkilometr olan Araz-Türk Respublikasının xəritəsi baxdıqca adamda qürur hissi yaradır. Buradakı guşələrdə Araz-Türk Respublikasının fəaliyyətindən bəhs edən tədqiqat materialları və tarixi sənədlər, monoqrafiyalar, elmi-publisistik məqalələr, hökumətin yaradılmasında fəaliyyətləri olan şəxsiyyətlər haqqında məlumatlar yer alır.

Ali Məclisin Sədri açılış mərasimində demişdir: ***"Bu gün açılışına toplaşdığımız bu tarixi bina 3 əsrin tarixi yaddaşını qorumaqla, xalqın azadlıq və müstəqillik epopeyasına 1918-ci ildən 1920-ci ilədək fəaliyyət göstərmiş Araz-Türk Respublikası hökumətinin fəaliyyətini də yazmışdır. Bu muzeydə Cəmşid Naxçıvanski ilə bərabər xalqımızın 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərindəki milli azadlıq və istiqlaliyyət uğrundakı mübarizəsində qəhrəmanlıq göstərən tarixi şəxsiyyətlərinin fəaliyyəti də əks olunur".***

### *Malikanədən dünyaya*

Bu gün muxtar respublikamız ən gözəl və cəlbedici turizm məkanlarından birinə çevrilib. Malikanədə keçirdiyim bir gün ərzində Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti ilə tanış olarkən Ali Məclis Sədrinin departamentin bu qədim və tarixi binada fəaliyyətə başlaması münasibətilə keçirilən tədbirdə söylədiyi dəyərli fikirlərini xatırlayıram: ***"2019-cu ilin yanvar-avqust ayları ərzində dünyanın müxtəlif ölkələrindən muxtar respublikaya 250 minə yaxın turist gəlmişdir. Bunun bir hissəsi Turizm-İnformasiya Mərkəzinin apardığı işlər nəticəsində mümkün olmuşdur. Ona görə də muxtar respublikanın turizm potensialı, zəngin tarixi-mədəni irsi, mətbəxi və müasir inkişafı ilə bağlı informasiyalar internet üzərindən daha geniş yayılmalı və təbliğat işləri aparılmalıdır. Binada yaradılan şərait imkan verəcəkdir ki, bu vəzifələr uğurla yerinə yetirilsin. Çünki muxtar respublikaya turistlərin cəlbi digər sahələrin də inkişafına təsir edir. Eyni zamanda muxtar respublika barədə həqiqətlər, tariximiz, mədəniyyətimiz, milli dəyərlərimiz dünya ölkələrinə tanıdılır".***

Bəli, departamentin məhz bu binada yerləşdirilməsinin özünün turizmin inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir edəcəyi sözsüzdür. Belə qənaətə gəlmək olar ki, departament buradan Naxçıvan turizmini, həm də diyarımızın möhtəşəm dövlətçilik və hərb tarixini dünyaya yaymaqla, dünyanın gəzməyə-görməyə maraqlı insanlarına məhz belə abidələrimizi, milli dəyərlərimizi və milli mətbəximizi göstərməklə muxtar respublikamızın zənginliyinin bir daha tanıdıcısı olacaqdır.

### *Muzeyləşən Naxçıvan haqqında bir neçə söz*

Muzeylər körpülərdir – dünənlə bu gün arasında salınan körpülər. Muzeylər dünən yaşananların bu gün yaşadılması, tarixə, keçmişə, soy-kökə bağlılığın göstəricisi, dünənin bu günə təbliğidir. Keçmişini bilməyənin gələcəyi olmaz deyirlər. Bu gün keçmişinə böyük ehtiram bəslənilən Naxçıvanımızın muzeyləşməsi, eyni zamanda bu günə qayğının göstəricisi, dünənlə bu günün olduğu kimi, bu günlə sabahın körpüləşməsi üçündür.

Beşminillik tarixi olan Naxçıvanımızın muzeyləşməsi bu minilliklərin ayrı-ayrı dövrlərinin tarixinin, mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının müasirimizə çevrilməsi ilə nəticələnib. Gənc nəslin dövlətçilik, vətənpərvərlik, milli ruhda böyüməsinə bundan böyük hədiyyə nə ola bilər ki?.. Hədiyyədən söhbət düşmüşkən, Ali Məclis Sədrinin bütün muzeylərimizə bağışladığı hədiyyələr tarixin yaşadılması ilə bərabər, həm də müasir dövrün keçmişi qorumaq, bu günü yaşatmaq, gələcəyə çatdırmaq, ümumilikdə, tarixin yazılmasında iştiraka çağırışdır.

**Mətanət MƏMMƏDOVA**

*Naxçıvan Muxtar Respublikasının ərazisi ən qədim məskunlaşma yerlərindən biri sayılır. Bunu bir çox amillər – ərazidə çoxsaylı mağaralarda məskunlaşma izləri, Gəmiqaya rəsmləri, Biçənək meşəsində karvan yolları üzərində yerləşən qədim şəhərin qalıqları, Kaha və Dərəşam dərələrində peçeneq türk tayfalarının yaşadıqları mağaralarda tapılan əmək və məişət alətləri və digər arxeoloji tapıntılar isbat etməkdədir. Bunlardan biri də vaxtilə indiki Sust kəndinin yerində yerləşən prolüvial – sel çöküntüləri ilə örtülmüş qədim şəhərin qalıqlarıdır.*

*Axtarışlar, tapıntılar*

# Qədim şəhərin izi ilə



Qədim şəhərin yerindən ümumi görünüş



Tikililərin yeraltı qalıqları

1986-cı ildə Moskva şəhərində rus dilində nəşr olunmuş, E.A.Levaşovun müəllifi olduğu "Coğrafi adlar" kitabının 315-ci səhifəsində yazılır: "Naxçıvan Sovet İttifaqındakı ən qədim şəhərlərdəndir. Şəhər mühüm ticarət yollarının kəsişdiyi yerdə yaranmışdır və bunun əsas səbəbi Naxçıvan duzu olmuşdur". Bu fikirlər Moskva şəhərində nəşr olunan "Znaniye-sila" jurnalının 1980-ci il 7 saylı nömrəsində təkrarlanmışdır. Qeyd etmək lazımdır ki, qədim və orta əsrlərdə duz insanlar üçün ən mühüm xammal sayılmışdır. Təsadüfi deyil ki, duz istehsalı olmayan dövlətlər bir növ iqtisadi asılılığa məruz qalmış, bu səbəbdən də zaman-zaman duz müharibələri baş vermişdir. Bəzi Avropa ölkələrində məmurlara maaş əvəzinə puldan üstün sayılan duz verirdilər. Qərbi Avropa ölkələrinin duz təminatında Naxçıvan duzu mühüm rol oynamışdır. Karvanlarla Avropaya daşınan Naxçıvan duzunun 2 dəfə Romada duz üsyanının yatırılmasında böyük əhəmiyyəti olmuşdur.

Naxçıvan xanlığının Rusiyaya birləşməsinə qədər və qismən sonrakı illərdə Naxçıvanda duz indiki Sust kəndinin yerində yerləşən şəhərdə emal olunurdu. Bunun səbəbi Sust yaxınlığındakı açıq duz laylarının daha qalın və tərkibcə daha zəngin olması idi. Burada duz açıq üsulla yanaşı, eyni zamanda şaxta metodu ilə emal olunurdu. Qeyd etmək lazımdır ki, Sust yaxınlığında yerləşən 19-cu layda duzun qalınlığı 15-40 metrdir və bu da duz ehtiyatının çox zəngin olmasının göstəricisidir.

Sust şəhərinin əhalisinin şirin suya olan tələbatını ödəmək üçün burada çoxsaylı kəhriz sistemləri qurulmuş, sonrakı illərdə onların bir çoxu baxımsızlıq üzündən, eləcə də tez-tez baş verən güclü sellərin təsirindən dağılmış, bəziləri isə bu günə qədər fəaliyyət göstərməkdədir.

İnfraqırmızı diapazonda çəkilmiş kosmik şəkillərdə ərazinin hidrogeoloji şəraitini müəyyən edən dağılmış kəhrizlərin, sərdabə və evlərin qalıqları aydın seçilməkdədir. Şəhər ərazisində yerləşən ayrı-ayrı kəhrizlərin suyu çox da böyük olmayan su anbarlarına toplanır və bu sulardan təsərrüfatın müxtəlif sahələrində, xüsusilə əkinçilikdə istifadə olunurdu. Sukeçirməyən laylar üzərində hərəkət edən kəhriz suları Araz çayı yaxınlığında yer səthinə yaxınlaşır və həmin suların təsiri ilə burada kol, ağac və pöhrəliklər formalaşdırır.

Sust şəhəri eyniadlı maili düzənliyin yuxarı hissəsində yerləşmişdir. Adır zonasında, yəni dağətəyi maili düzənliyin orta dağlıqla birləşdiyi bu yer heyvandarlığın inkişafı üçün xüsusilə əlverişli olmuşdur. Belə ki, düzənlikdən qışlaq, onun şimalında yerləşən dağlıq ərazidən isə yaylaq kimi istifadə olunmuşdur.

Şəhər daxilində bir neçə karvansaranın olması həm də onun coğrafi mövqeyi ilə əlaqədardır. Belə ki, əlverişli coğrafi mövqe karvanların buradan həm soyuq, həm də isti dövrdə keçməsində, eləcə də ilboyu yemə və qidalanmaya olan tələbatın ödənilməsində mühüm rol oynamışdır. Şəhərin cənubunda yerləşən maili düzənlik qışda, şimalında yerləşən orta dağlıq ərazi isə yayda heyvanların əsas yem bazası olmuşdur. Məntəqədən, eyni zamanda cənub-şərq və şimal-qərb istiqamətlərində karvan yolları keçmişdir. Qışda Dərələyəz silsiləsində yerləşən aşırımlar qarla örtüldüyünə görə karvanlar ikinci marşrutdan istifadə etmişlər. Bu marşrut Araz çayının axın istiqamətinə paralel yerləşmiş və qış dövründə qar örtüyü az olduğuna görə karvanların hərəkəti üçün daha əlverişli sayılmışdır.

Rusiya tərəfindən işğal olunana qədər şəhər Səfəvilər, Əfşarlar və Osmanlı dövlətlərinin ərazi bölgüsünə daxil olmuş və siyasi hadisələrin təsiri nəticəsində onun kənd təsərrüfatında, emaledici sənayedə, xüsusilə duz istehsalında, ticarətində dəfələrlə dəyişikliklər baş vermişdir. Səfəvilər dövlətinin tərkibində Çuxursəd bəylərbəyliyinə daxil edilmiş şəhər ustaların nəzarəti altında olmuşdur. Bu dövrdə şəhər xeyli inkişaf etmiş, sənayenin bir çox yeni sahələri ixtisaslaşmışdır. Bunlardan saxsı qab, gön-dəri və qaragül dərisi, xalça emalı sahələrini xüsusi qeyd etmək olar. Gildən hazırlanmış müxtəlif səhəng, tuluq, kasa qabların qırıqları emal üçün yerli xammaldan istifadə olunduğunu göstərməkdədir.

Şəhərin yerləşdiyi ərazi keçmişdə dəfələrlə dəniz və okeanların altında qalmışdır. Bu dənizlərin suyu zaman-zaman bəzən isti, bəzən isə soyuq sulardan ibarət olmuşdur. Dənizlərin qabarması və çəkilməsi nəticəsində onun yerində qalmış körfəz suları buxarlanaraq tərkibindəki duzları çökdürmüş, duz layları ilə yanaşı, müxtəlif qalınlıqlı gil qatını formalaşdırmışdır.

8 milyon il əvvəl Sarmat dənizinin çəkilməsi nəticəsində burada duzla yanaşı, olduqca keyfiyyətli dəniz gilinin təbəqəsi yaranmışdır. Yüksək keyfiyyəti ilə seçilən bu gil hər zaman saxsı qab istehsalında ən yaxşı xammal hesab olunmuşdur.

Nadir şah Əfşarın dövründə Naxçıvan, eləcə də onun ayrı-ayrı məntəqələri çox böyük iqtisadi tənəzzülə uğramış, təkmərkəzli idarə sistemləri məntəqələrin iqtisadi inkişafına mane olmuş və bu da, bütövlükdə, şəhərlərin inkişafının qarşısını almışdır. 1747-ci ildə Heydərqulu xan tərəfindən iki bölgədən ibarət Naxçıvan xanlığı yaradılır. Xanlığın yaranması ölkənin iqtisadi inkişafına təkan vermiş olur. Belə ki, ayrı-ayrı şəhərlər və ərazilər müəyyən sahədə ixtisaslaşır, bu da təsərrüfatın çoxsahəli olmasına zəmin yaradır. Həmin dövrdə Naxçıvan xanlığının ixracat məhsullarının əsasını qaragül dərisi, xalça, keçə, quru meyvə və duz təşkil etmişdir. Avropaya çıxarılan bu məhsulların ikisi – dəri və duz Sust nahiyəsində emal olunur və onun başlıca ixtisaslaşmış sahəsi sayılırdı.

*Qədim tarixə, vaxtilə müxtəlif emaledici sənayeyə malik olan Sust şəhərinin yerində müxtəlif ixtisaslara malik mütəxəssislərin iştirakı ilə kompleks araşdırmalar aparılmalı, araşdırmaların nəticələri tarixi, coğrafi, turizm baxımından qiymətləndirilməli, eyni zamanda yaxın keçmişimizin silinmiş səhifələri bərpa olunmalıdır.*

**Nigar BABABƏYLİ**
**Naxçıvan Dövlət Universitetinin Bələdiyyə və turizm kafedrasının müəllimi**

# İntellektual oyun keçirilib

*12 avqust – Beynəlxalq Gənclər Günü münasibətilə gənclər arasında "Xəmsə" milli intellektual oyunu keçirilib.*

Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudov, Təhsil Nazirliyinin əməkdaşı Rəşad Adıgözəlov çıxış edərək gənclərin intellektual səviyyələrinin yüksəldilməsi istiqamətində görülən işlərdən bəhs ediblər.

Sonra 8 komandanın iştirakı ilə 2 yarımfinal və final mərhələsindən ibarət olan oyun başlayıb. Hər mərhələdə ən yüksək xal yığaraq birinci və ikinci yerlərə çıxmış komandalar finala vəsiqə qazanıblar. Belə ki, "Diplomat", "Qasırğa", "Turan" və "Böyük beşlər" komandaları finalda mübarizə aparıblar. Sonda "Diplomat" komandası daha çox xal toplayaraq oyunun qalibi adını qazanıb. "Turan" və "Qasırğa" komandaları müvafiq olaraq II və III yerə çıxıb. Qalib komandaya kubok, digərlərinə, eləcə də komanda üzvlərinə diplom, fəxri fərman, Azərbaycan və dünya ədəbiyyatı nümunələrinə aid bədii kitablar təqdim olunub.

40 gəncin iştirak etdiyi intellektual oyun Gənclər və İdman, Təhsil nazirliklərinin, Yeni Azərbaycan Partiyası Heydər Əliyev adına Gənclər Birliyinin və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

# Naxçıvan Dövlət Universiteti yeni beynəlxalq layihədə iştirak edəcək



"Rusiya Federasiyası, Qazaxıstan və Azərbaycanda səhiyyədə strateji keyfiyyət menecmenti və riskin idarə olunması üzrə açıq və distant təhsil formatında peşə bakalavrı və peşə magistri hazırlığı" mövzusunda Erasmus + LMQ SANTE layihəsinə start verilir. Naxçıvan Dövlət Universitetinin də qatıldığı layihənin müddəti 3 ildir. Layihənin məqsədi səhiyyə maarifinin yüksəldilməsi, səhiyyə sisteminin inkişafı və ixtisaslı tibbi kadrların hazırlanması, onların tibbi bacarıqlarının inkişaf etdirilməsidir.

Layihə təlim-tədris proqramlarını inkişaf etdirmək və təlimdə innovasiyaların tətbiqinə nail olmaq üsullarını qarşısına məqsəd qoyur. Partnyor ölkələrin səhiyyə və təhsil nazirliklərinin dəstəklədiyi layihənin təşəbbüskarı Yunanıstanın Qərbi Attika Universiteti, regional koordinatoru isə Azərbaycan Texniki Universitetidir. Layihədə Avropa İttifaqından Afina Universiteti, Nice Universiteti, Cluj Universiteti, Rusiya Federasiyasından 8 universitet, Qazaxıstandan 6 universitet iştirak edir. Layihədə ölkəmiz həm də M.Seçenov adına Moskva Tibb Universitetinin filialı, Onkologiya Mərkəzi ilə təmsil olunur.

**Səadət ƏLİYEVA**

# Türkdilli əlyazma və çap kitabları kataloqu nəşr olunub

***AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondu tərəfindən hazırlanan "Türkdilli əlyazma və çap kitabları" kataloqu işıq üzü görüb. AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin elmi redaktorluğu ilə çap olunan nəşrin tərtibçisi və ön sözün müəllifi bölmənin Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilovdur.***



İki hissədən ibarət olan kataloqda fondda qorunan türkdilli əlyazma və çap kitablarının qısa biblioqrafik təsviri verilib. Birinci hissəyə daxil edilən kitablar "Bədii ədəbiyyat", "Dilçilik və ədəbiyyatşünaslıq", "Tarix və ictimaiyyət", "İlahiyyat və fəlsəfə", "Pedaqogika, dərslik və dərs vəsaitləri" başlıqları altında qruplaşdırılıb. Yazılma və çap edilmə tarixi 1930-cu ilədək olan bu hissəyə daxil olan əlyazma və çap kitablarının hamısı ərəb əlifbası ilədir. Kataloqda onların adı, müəllifi, katibi, yazılma və çap olunma tarixi, xətti, ölçüsü və həcmi haqqında məlumatlar verilib. Kitabın ikinci hissəsinə isə latın əlifbası ilə olan kitablar daxil edilib. Ərəb əlifbası ilə olan kitabların müəllifi və kitabların adı həm ərəb, həm də latın qrafikalı müasir Azərbaycan əlifbası ilə göstərilib. Əlyazma və kitabların adları yazılma və çap olunma tarixlərinə görə xronoloji ardıcıllıqla verilib. Hər iki hissənin sonunda oxucuların kataloqdan istifadəsinə kömək məqsədilə "Göstəricilər" başlıqlı xüsusi bir bölmə də əlavə olunub.

Qeyd edək ki, fondda türkdilli qədim əlyazma və daşbasma üsulu ilə çap olunan kitablarla yanaşı, XIX əsrin sonlarından etibarən elektrik mətbəəsində çapdan çıxan kitablar da mühafizə olunur. Ümumilikdə, sayı 200-ə çatan, elm və mədəniyyətin, tarix və ədəbiyyatın müxtəlif sahələrinə aid həmin əlyazma və çap kitablarının əksəriyyəti muxtar respublikanın müxtəlif ərazilərindən toplanılıb. Fondda qorunan ən qədim türkdilli əlyazma kitabı 1857-ci ildə Əsgər ibn Hüseyn bəy Ordubadinin sifarişi ilə Məşədi Hacıağa Təbrizi tərəfindən üzü köçürülən Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasıdır. Azərbaycan dilində olan həmin əlyazmaya 22 rəngli miniatür də daxil edilib.

**AMEA Naxçıvan Bölməsinin Beynəlxalq əlaqələr və informasiya şöbəsi**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Ailədə uşağın valideynlərindən biri ilə xarici ölkəyə getməsi üçün hər ikisinin razılığı olmalıdırmı? Valideynlər boşanmışsa, bu hal necə tənzimlənir?*

***Cavab:*** Qanunvericiliyə əsasən 18 yaşına çatmamış şəxs ölkəni tək tərk etdikdə hər iki valideynin, valideynlərdən biri ilə getdikdə digər valideynin notariat qaydasında təsdiq olunmuş razılığı tələb olunur. Bu tələb valideynlər boşandıqda da tətbiq olunur, yəni ki, ərlə arvad boşansa da, onlar uşağın valideyni olaraq qaldıqları üçün yetkinlik yaşına çatmayan şəxs ölkəni tərk etdikdə valideynlərin razılığı tələb olunur.

Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 11.2-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayan vətəndaş ölkədən valideynlərinin biri ilə getdikdə digər valideynin notariat qaydasında təsdiq edilmiş razılığı tələb olunur. Yetkinlik yaşına çatmayan vətəndaş ölkədən tək getdikdə valideynlərinin, valideyn himayəsindən məhrum olduqda isə onu övladlığa götürən şəxsin, himayəçisinin və ya qəyyumunun notariat qaydasında təsdiq edilmiş razılığı tələb olunur. Həmin şəxslərdən birinin razılığı olmadıqda, yetkinlik yaşına çatmayan vətəndaşın ölkədən getməsi məsələsi məhkəmənin qərarı əsasında həll edilir.

18 yaşına çatmamış vətəndaşın daimi yaşayış üçün ölkədən getməsinə yalnız onun valideynlərinin hər birinin və ya qanuni nümayəndəsinin yazılı şəkildə ifadə edilmiş və notarius tərəfindən və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada təsdiq edilmiş razılığı olduqda yol verilir.

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti**

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 582